

## YASİN ŞAHMALI OĞLU

Bircə bənd.

*(Könül və tələbəlik dostum Əbülfət Bəhlulov: "Dost olmaq çətindir,zəmanəyə baxmır. Doctu özündən seçməməlisən qəlbəlr bir olmalıdır, qəlplik olmamalıdır....").*

Dost olmaq çətindir hər zamanədə
Dostunu özünə seçənə, tfu!
Qəlbində dostuna qəlp çıxan gədə
Aşkar yedirtsən də beçənə, tfu!

*1976*

**"Könül dostlarımla yazışmalar" silsiləsindən (1980-ci illər)**

### Əzizim

Dünya bizi aciz görüb aldadır.
Dərk eyləyib bilməliyik əzizim!
Yer üzündə axan nahaq qanları
Çarə tapıb silməliyik əzizim!

Hər insanda vicdan olsa bir qədər,
Dünya varı hamıya da bəs edər...
Fərqi yoxdur,sevinc olsun ya kədər.
Bölüşməli, bölməliyik, əzizim!

Adət olub bir adətlə yaşamaq:
Adamlarla ədavətlə yaşamaq...
Ya ağılla, ədalətlə yaşamaq,
Ya məhv olub ölməliyik, əzizim!

Qismət hələ bizi qane etməmiş,
Tale haqqın qapısına yetməmiş,
Əyri yolla o dünyaya getməmiş-
Doğru yola gəlməliyik, əzizim!

*1986*

### QANMAZA

Öyüd belə qulağına girməyir
Zorbaca bir zor gərəkdir qanmaza.
Baxanda ki, həqiqəti görməyir
Gözlər elə kor gərəkdir qanmaza!

Ürəyinin buz tilsimi sınmayır,
Ağlayanın göz yaşına yanmayır,
Deyəndə ki "dərdin alem" -qanmayır
Elə azar-çor gərəkdir qanmaza!

Dilim qələm, sinəm yaydı,sözüm ox,
Hədəfinə düz çatmağa şübhəm yox!
Arsız-arsız yaşamaqdan daha çox
Yüngülvari gor gərəkdir qanmaza!

*1986*

### DÜNYA

Doğru, düzgün danışanı,
Həqiqətlə alışanı...
Xalqdan ötrü çalışanı
Şahmar olub çalar dünya!

Haqqın yolundan sapanı,
Kürsü, vəzifə qapanı...
Eli talayıb çapanı
Bala sanıb yalar dünya!

Kasıbın sinəsin dağlar.
Qazancı üzünə bağlar...
Nə pis-yaxşı bir gün ağlar
Nə qeydinə qalar dünya!

Küləyi hər səmtə əsib,
Bir tərəfə olmur nəsib...
Mərdlərin ömründən kəsib
Namərdlərə calar dünya!

Əyridirsə, heç, düz de sən,
Əllidirsə, keç, yüz de sən...
Əleyhinə bir sözdesən
Kəməndinə salar dünya.

Gah ağladar, gah güldürər;
Gah yandırar, gah söndürər...
Beləcə bir gün öldürər
Ağuşuna alar dünya!

*1968*

### CEYRAN

*(3 il sərasər "çobansan,çoban, mənə də bir şey yazmırsan" deyə təngə gətirən qrup tələbə tələbə yoldaşıma IV kursun əvvəlində yazdım ki,bəlkə qulağım dincələ,amma bir halal yağlı şillə yedim...)*

Uşaqlığı, ötürübsən,
Gəncliyini gətiribsən.
Əmməlicə yetiribsən.
Qalmayıbdır kalın, Ceyran!

Yanaqlar qırmızı-ağdı,
Sinən də nar dolu bağdı.
Ürəyimə çarpaz dağdı
Üzündəki xalın, Ceyran!

Həsrətəm alt dodağına,
İllah indiki çağına.
Yəqin dadı-damağına
Həddi çatmaz, balın, Ceyran!

Gəzə çəkdiyin sürmədir;
Donun da zorla girrmədir...
Nəm ipəkdir, həm örmədir
Çiynindəki şalın, Ceyran!

Ölləm səni görməyəndə,
Ağ bədəni görməyəndə...
Sən də məni görməyəndə
Dəyişirmi halın, Ceyran?

Yasin iyirmi yaşdadır,
Səndən ötrü təlaşdadır.
Məcnun tək dağda-daşdadır
Ayaqları yalın, Ceyran!

*1970*

### YÜZÜ HAXLA!

*(Bacım Səidənin 80 illiyinə)*

Allahını sevsə hər kəs
Həm də alsa təmiz nəfəs,
Həyatı yaşamaz əbəs-
Ömrü nurla dolar, bacı!

Elmar, Günay solun,sağın,
Həsən, Namiq qalxan dağın!
Var-dövlətin, bağça - bağın
Nə bitər, nə solar, bacı !

Ruhun ləzzət ala-ala
Səksənini atdın dala.
Nə qalıb ki, gətir yola,
Doxsanı da nolar, bacı!

Gərəksə ağbirçək sözü,
Səndədir tayfanın gözü.
Yüzü haxla,Yasin özü,
Sənə qurban olar,bacı!

*28 aprel 2023*

*Möcüzə qız, möcüzə səs.*
*(Qeyri-adi, nadir, ecazkar səsinə quzu kəsdiyimiz, əlaçı tələbə qızımız Xannirzəli Lamiyənin ad gününə)*

Oxuyan, çalışqan tələbələrim-
Ömrümün bəzəyi- baharım, yazım...
Onlardır sevincim, gücüm, hünərim!
Ən başda dayanan, Lamiyə qızım!
Heyrətə gəlirsən məəttəl qalıb,
Bu yaşda bu, qızda kamilliyə bax!
Yaradan hər şeyi nəzərə alıb-
Çətindir zərrəcə bir qüsur tapmaq,
Tərbiyə, davranış, oturmaq-durmaq,
Biliyi, savadı-hər şeyi yerində!
Düşüncə, təfəkkür, məntiqlə armaq
Zəkası zirvədə, ağlı dərində!
Baxırsan, adicə görkəmi vardır,
Gülərüz, qarasaç, qara gözlüdür!
Dilinin yeganə bir çəmi vardır-
Bolluca, ballıca şirin sözlüdür...
Bu qızın çox özəl danışıq səsi,
Dupduru çeşmələr zümzüməsimi?!
Ruhən əsir edir duyan hər kəsi,
Dünyanın sonuncu möcüzəsimi?!
Hər bir kəs bilsə ki son nəfəsidir-
O səsi eşitmək diləyi olar,
Bir dəfə dinləsə onun bəsidir-
Əzrail gəlsə də əli boş qalar!

*21 aprel 2023*